**«İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası»nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

«İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 iyul tarixli 609 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması Qaydası» təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 25 yanvar 2008-ci il
№ 13

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2008-ci il 25 yanvar
tarixli 13 nömrəli qərarı ilə
**təsdiq edilmişdir**

**İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması**

**Q A Y D A S I**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda «İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 iyul tarixli 609 nömrəli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və istehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılması qaydasını müəyyən edir.

1.2. Tullantıların inventarlaşdırılması «İstehsalat və məişət tullantıları haqqında» Azərbaycan Respublikası Qanununun müddəalarına və «Təhlükəli tullantıların sərhədlərarası daşınmasına və kənarlaşdırılmasına nəzarət haqqında» Bazel Konvensiyasının (bundan sonra - Bazel Konvensiyası) prinsiplərinə əsaslanmaqla, təhlükəli tullantıların idarə olunması sahəsində beynəlxalq standartlara uyğun yeni təsnifat sisteminin tətbiqi və tullantının əmələ gəlməsi üzərində monitorinqə ətraflı nəzarət mexanizminin təmin edilməsi məqsədi ilə aparılır.

1.3. Bu Qayda inventarlaşdırılma prosesinin həyata keçirilməsinin aşağıdakı ardıcıllığını müəyyən edir:

- tullantının müəyyən edilməsi;
- tullantının təhlükəliliyinin təyin edilməsi;
- tullantının identifikasiyası və təsnifat sisteminin tətbiqi.

## 2. Tullantının identifikasiyası

2.1. İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırılmasını aparmaq məqsədi ilə müəssisə rəhbəri səlahiyyətli şəxsi və inventarlaşdırma vaxtını təyin edir.

İstehsalçı inventarlaşdırmanı müqavilə ilə hər hansı bir ixtisaslaşdırılmış təşkilata da həvalə edə bilər.

2.2. İnventarlaşdırma aparan şəxs müəssisənin ərazisinə baxış keçirdikdən sonra bu ərazidə tullantı əmələ gələ bilən mənbələri müəyyən etmək üçün müəssisədə mövcud olan bütün texnoloji reqlamentləri və digər normativ sənədləri nəzərdən keçirir.

2.3. Tullantının əmələ gəlmə mənbəyi bir texnoloji reqlamentlə təsvir edilmiş sənaye müəssisəsi və ya onun sahəsi (sexi) ola bilər.

2.4. Əgər müəssisə bir reqlament üzrə işləyirsə və bu reqlamentdə bütün istehsal qurğuları təsvir edilmişdirsə, bu müəssisə tullantıların müəyyən olunma mənbəyi kimi göstərilir.

2.5. İstehsal prosesində istifadə olunan xammala, köməkçi materiallara, qurğulara, digər texniki sənədlərə və reqlamentdəki göstəricilərə görə material balansı tərtib edilir və nəticədə qurğularda əmələ gələn tullantıların dəqiq miqdarı müəyyən olunur.

2.6. Müəssisənin ərazisində başqa tullantı mənbəyi kimi digər müəssisədən gətirilən tullantı ola bilər.

Əgər ərazidə digər müəssisədən gətirilmiş tullantı olarsa, onda daşınma barədəki nəqliyyat sənədləri yoxlanılır və həmin tullantının növü, miqdarı və tərkibi haqqında qeydlər aparılır.

2.7. Müəssisədə tullantıların bir hissəsinin əmələ gəlmə mənbəyi ərazidə emal və ya utilizasiya edilmək üçün saxlanılması ola bilər:

2.7.1. əgər tullantı əmələ gəlmə ərazisində emal və ya utilizasiya edilirsə, onda emal sahələrində olan bütün qurğular müəyyən olunur, tullantı keyfiyyətinə və kəmiyyətinə görə identifikasiya edilir;

2.7.2. emala və utilizasiyaya yararlı olmayan, ya da emal oluna bilməyən tullantının müəssisədən kənarlaşdırılması və yaxud başqa müəssisəyə verilməsi araşdırılır.

2.8. Tullantının müxtəlif səbəblərə görə müəssisənin ərazisində və əmələ gəlmə sahəsində saxlanılması araşdırılır.

Əgər tullantı daşınma, emal və ya təkrar istifadə üçün ərazilərdə saxlanılırsa, onda ərazidə müvafiq qurğuların olması, saxlanılma sahəsinin statusu, tullantının xüsusiyyəti və müəssisədə mövcud şəraitin səviyyəsi yoxlanılır.

2.9. Müəssisənin ərazisindən tullantıların daşınması nəqliyyat sənədlərinin yoxlanılması yolu ilə müəyyən edilir.

2.10. Bu Qaydanın 2.2-2.9-cu bəndlərinə uyğun olaraq, inventarlaşdırılmanı aparan şəxs müəssisədə əmələ gələn tullantının mənbəyini, növünü (xüsusiyyətini), miqdarını, emal metodunu, saxlanılmasını və daşınmasını əks etdirən sənəd (cədvəl şəklində) tərtib edir.

2.11. Sabit texnoloji reqlamentlə işləyən istehsalatda tullantıların inventarlaşdırılması 5 ildə bir dəfədən az olmayaraq aparılır.

2.12. İstehsalçı aparılmış inventarlaşdırma və tullantıların dövriyyəsi haqqında Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məlumat verməlidir.

## 3. Təhlükəli tullantının identifikasiyası

3.1. Müəssisədə əmələ gələn tullantı üzrə ümumi nəticə əldə edildikdən sonra tullantının təhlükəli olması və onun ətraf mühitə və insan sağlamlığına təsiri müəyyən edilir.

3.2. Tullantının təhlükəli olmasını sübut etmək üçün onun tərkibini təşkil edən maddələrin fiziki-kimyəvi xassələri, toksiklik sinfi, yanma qabiliyyəti və s. xüsusiyyətləri araşdırılır.

3.3. Tullantının identifikasiyası bu tullantının pasport məlumatları və ya tullantının hansı növə və xüsusiyyətə aidiyyətini müəyyənləşdirən yoxlama sınaqları əsasında həyata keçirilir. Bundan əlavə tullantının identifikasiyası üçün aşağıdakı mənbələrdən də istifadə oluna bilər:

- prosesdə istifadə olunan xammal haqqında məlumatlardan;
- oxşar növ tullantıları olan başqa müəssisənin məlumatlarından;
- mövcud normativ-texniki sənədlərdəki məlumatlardan;
- kimyəvi-sorğu ədəbiyyatındakı məlumatlardan;
- oxşar tullantılarla əlaqədar baş vermiş qəza halları haqqındakı tarixi məlumatlardan.

3.4. Əgər tullantı bir neçə kimyəvi maddənin qarışığından ibarətdirsə, bu halda ilk növbədə əsas ekoloji əhəmiyyətli komponentin tərkibdə olan miqdarı və onun təhlükəli xüsusiyyəti nəzərə alınmalıdır.

3.5. Əsas ekoloji əhəmiyyətli komponentin identifikasiyasında təhlükəli tullantının tərkibində olan hər hansı bir komponentin ətraf mühitə göstərdiyi ekoloji cəhətdən ən zərərli xassəsi əks olunur.

3.6. Tullantı haqqında müəyyən edilən hər bir təhlükəlilik xüsusiyyətinin növü Bazel Konvensiyasının müvafiq əlavələrinə uyğun olaraq identifikasiya (eyniləşdirmə) edilir.

3.7. İdentifikasiya (eyniləşdirmə) üçün aşağıdakı dörd əsas nəticə əldə olunur:

- təhlükəli tullantının növü;
- təhlükəli tullantının miqdarı;
- əsas təhlükəlilik;
- yanaşı təhlükəlilik.

3.8. Tullantının təhlükəlilik xüsusiyyəti identifikasiya edildikdən sonra tullantının növü təsnif olunur (siniflərə ayrılır). Bunun üçün qarışıqda olan ən təhlükəli kimyəvi maddələrdən başlanmalı və 1 nömrəli əlavədə göstərilən prioritet qaydaya uyğun düzülüş gözlənilməlidir.

Bu düzülüşə görə təhlükəlilik xüsusiyyətləri ilə sağlamlığa və təhlükəsizliyə tez təsiredici xüsusiyyətlərə (partlayış, yanma) malik olan maddələrə uzunmüddətli təsir göstərən maddələrə nisbətən daha çox üstünlük verilir.

3.9. Tullantıların toksiklik əmsalının hesablanması müvafiq qaydaya uyğun olaraq aparılır. Nəzərə alınmalıdır ki, toksiklik əmsalı aşağı olduqca, zərərli təsir riski bir o qədər yuxarı olur.

3.10. Bütün bunlardan sonra müəssisənin təsərrüfat fəaliyyəti nəticəsində əmələ gəlmiş hər bir təhlükəli tullantı növü üzrə 2 nömrəli əlavəyə uyğun olaraq inventarlaşdırma blankı tərtib edilir.

## 4. Təhlükəli tullantıların təsnifat sistemi və ondan istifadə

4.1. Təhlükəli tullantıların 3 nömrəli əlavədəki təsnifat sistemi Bazel Konvensiyasının 3 nömrəli əlavəsinə əsasən H-kodlarına uyğun təhlükəlilik xüsusiyyətlərini və tullantıların kodunu, növünü, xassələrini və tövsiyə olunan zərərsizləşdirmə üsullarını ifadə edir.

4.2. Nəzərdə tutulan emalın və zərərsizləşdirmənin ətraf mühitə təsirinin qiymətləndirilməsi və təhlükəli tullantıların ayrı-ayrı qruplar üzrə növlərə bölünməsi əsas ekoloji əhəmiyyətli komponentin identifikasiyasına əsaslanır.

4.3. Əgər tullantının tərkibində iki təhlükəli komponent vardırsa və birinci komponentin birdən çox təhlükəli xassəsi olarsa, bu halda tullantının kodu təsnifat üçün istifadə olunan təhlükəlilik xüsusiyyətlərinin prioritet qaydasına müvafiq təyin olunur.

4.4. Təhlükəli tullantıların təsnifat sisteminin ümumi strukturunda aşağıdakı ardıcıllıq gözlənilir:

- təhlükəli tullantılar qrupu (H - kodları əsasında);
- üzvi tullantı;
- halogen tərkibli;
- azot tərkibli;
- kükürd tərkibli;
- digər üzvi tərkibli;
- qeyri-üzvi tullantı;
- təklif olunan emal üsulu və əsas ekoloji əhəmiyyətli komponentə müvafiq bölünmə;
- təhlükəli tullantılarla çirklənmiş materiallar.

4.5. Təsnifat sistemində təsvir olunan birləşmələrin aid edildiyi kodlar aşağıdakı qaydada tərtib edilir:

- kodun tiredən əvvəlki hissəsi (məsələn: H 4.1-) təhlükəlilik xüsusiyyətlərinin kodlaşdırılmasını – yəni «təhlükəli tullantı qrupu»nu müəyyən edir;
- tiredən sonra birinci rəqəm (məsələn:-1) təhlükəli tullantının yarımqrupunu, sonuncu iki rəqəm isə (məsələn:-1.02) təhlükəli tullantının spesifik növünü müəyyən edir.

4.6. Təhlükəli tullantının qrupu əsas təhlükəliliyi H kodundan istifadə edilməklə təyin olunur.

4.7. Təhlükəli tullantıların fiziki-kimyəvi xassələrinə görə yarımqrupu təyin edilir. Yarımqruplara ayrılmış birləşmələr aşağıdakı ardıcıllıqla tərtib edilir:

- üzvi birləşmələr;
- qeyri-üzvi birləşmələr;
- bu birləşmələrlə çirklənmiş materiallar.

4.8. Təhlükəli tullantıların hər yarımqrupuna bir neçə növə aid tullantı daxil olarsa, tullantı növünün təyini zamanı prioritet qaydaya uyğun düzülüş gözlənilməlidir.

4.9. Təhlükəli tullantıların identifikasiyası və təsnifat sistemi bu Qaydaya uyğun olaraq aparıldıqdan sonra, əldə edilmiş məlumatlar təhlükəli tullantının pasportuna və inventarlaşdırılması üzrə blanka (illik hesabat da daxil olmaqla) daxil edilir.

tullantıların inventarlaşdırılması
Qaydası»na
**1 nömrəli əlavə**

## Bazel Konvensiyasının
## 3-cü əlavəsinə uyğun təhlükəli tullantıların növlərinin siyahısı

| Sıra №-si | Bazel Konvensi-yasının kodu | Təhlükəli tullantıların növü |
|---|---|---|
| 1. | H1 | Partlayıcı maddələr |
| 2. | H3 | Tezalışan mayelər |
| 3. | H4.1 | Tezalışan bərk maddələr |
| 4. | H4.2 | Öz-özünə alışma qabiliyyətli maddələr |
| 5. | H4.3 | Su ilə təmasda tez alışan qazlar əmələ gətirən maddələr |
| 6. | H5.1 | Oksidləşdirici maddələr |
| 7. | H5.2 | Üzvi peroksidlər |
| 8. | H6.1 | Çox zəhərli (toksiki) maddələr |
| 9. | H6.2 | Yoluxdurucu maddələr |
| 10. | H8 | Korroziv maddələr |
| 11. | H10 | Su, hava və ya turşularla təmasda toksik qazlar ayıran maddələr |
| 12. | H11 | Toksik maddələr (uzunsürən və ya xroniki xəstəliklər əmələ gətirən) |
| 13. | H12 | Ekotoksik maddələr |
| 14. | H13 | Kənarlaşdırıldıqdan sonra yuxarıda göstərilən xüsusiyyətlərin birinə malik olan başqa materiallar əmələ gətirə bilmə qabiliyyəti olan maddələr |

«İstehsal prosesində əmələ gələn
tullantıların inventarlaşdırılması
Qaydası»na
**2 nömrəli əlavə**

## İstehsal prosesində əmələ gələn tullantıların inventarlaşdırma blankı

<table>
<tr><td>Blank №-si</td><td>Doldurulma tarixi</td><td></td></tr>
<tr><td colspan="3">Tullantının adı</td></tr>
<tr><td colspan="3">Tullantının növü</td></tr>
<tr><td>Müəssisənin adı</td><td colspan="2">Ünvan</td></tr>
<tr><td>VÖİN kodu</td><td colspan="2">Telefon</td></tr>
<tr><td colspan="3">Tullantının yaranma mənbəyi<br>☐ İ T D X B</td></tr>
</table>

| Kodu | Müəssisədə əmələ gələn tullantı-nın miqdarı | Başqala-rından alınan tullantı-nın miqdarı | Başqa-larına verilən tullan-tının miqdarı | Kənarlaşdırma | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | müəssisə daxilində | | | başqa təşkilata verilən tullantılar | | imza |
| | | | | miq-darı. | istifa-də meto-du | sax-lanıl-ma | miq-darı | təşkila-tın adı və ünvanı | |
| | | | | | | | | | |

**Qeyd.** Blankda tullantının yaranma mənbəyini göstərən şərti işarələr aşağıdakıları ifadə edir:

İ - istehsal prosesində;
T - toplanılma yerində;
D - daşınma zamanı;
X - xidmət sahəsində;
B - basdırılma yerində.

İstehsal prosesində əmələ g

ələn ullantıların inventarlaşdırılması

# TƏHLÜKƏLİ TULLANTILARIN TƏSNİFAT SİSTEMİ

| Bazel Konvensiyasının kodu | Təhlükəli tullantıların kodu | Təhlükəli tullantıların xassələri | Təklif olunan (nəzərdə tutulan) zərərsizləşdirilmə üsulu |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| **H 1** | **H 1.0-0.00** | **Partlayıcı maddələr:** | |
| | H 1.0-1.00 | partlayıcılar | |
| | H 1.0-1.01 | əgər qurudurlarsa, partlayıcı olan maddələr | ancaq nəzarət olunan partlayış yolu ilə |
| | H 1.0-1.02 | silkələnmədən, sürtünmədən, yanğından və ya başqa alışma mənbələrindən partlaya bilən maddələr | ancaq nəzarət olunan partlayış yolu ilə |
| | H 1.0-1.03 | çox həssas partlayıcı metal birləşmələri ilə əmələ gələ bilən maddələr | ancaq nəzarət olunan partlayış yolu ilə |
| | H 1.0-1.04 | qızdırılma (qızma) vaxtı partlaya bilən maddələr | ancaq nəzarət olunan partlayış yolu ilə |
| | H 1.0-1.05 | hava və ya su ilə təmasda partlaya bilən maddələr | ancaq nəzarət olunan partlayış yolu ilə |
| **H 3** | **H 3.0-0.00** | **tez alışan mayelər:** | |
| | H 3.0-1.00 | tez alışan mayelər | |
| | H 3.0-1.01 | halogen tərkibli üzvi mayelər | təhlükəli tullantıların yandırılması |
| | H 3.0-1.02 | azot tərkibli üzvi mayelər | sement sobalarında yandırma |
| | H 3.0-1.03 | kükürd tərkibli üzvi mayelər | sement sobalarında yandırma |
| | H 3.0-1.04 | digər üzvi mayelər | sement sobalarında yandırma |
| **H 4.1** | **H 4.1-0.00** | **Tez alışan bərk maddələr:** | |
| | H 4.1-1.00 | tez alışan bərk maddələr | |
| | H 4.1-1.01 | halogen tərkibli üzvi bərk maddələr | sement sobalarında |

| | | | |
|---|---|---|---|
| | | | yandırma |
| | H 4.1-1.02 | azot tərkibli üzvi bərk maddələr | sement sobalarında yandırma |
| | H 4.1-1.03 | kükürd tərkibli üzvi bərk maddələr | sement sobalarında yandırma |
| | H 4.1-1.04 | digər üzvi bərk maddələr | sement sobalarında yandırma |
| | H 4.1-1.05 | qırmızı fosfor və fosforun bəzi birləşmələri | sement sobalarında yandırma |
| | **H 4.1-2.00** | **Tərkibində tez alışan mayelər olan bərk maddələr:** | |
| | H 4.1-2.01 | çirklənmiş torpaqlar | təhlükəli tullantılar poliqonu və ya sement sobalarında yandırma |

| 1 | 2 | 3 |
|---|---|---|
| | H 4.1-2.02 | tikinti və söküntü vaxtı əmələ gələn tullantılar |
| | H 4.1-2.03 | adsorbentlər, qablaşdırma və süzgəc materialları |
| **H 4.2** | **H 4.2-0.00** | **Öz-özünə alışma qabiliyyətli maddələr:** |
| | H 4.2-1.00 | öz-özünə yanmağa meyilli maddələr |
| | H 4.2-1.01 | pirafosfor metallar, narın dispersiyalı |
| | H 4.2-1.02 | metalların alkilləri |
| | H 4.2-1.03 | ağ fosfor (sarı fosfor) |
| | H 4.2-1.04 | digərləri |
| **H 4.3** | **H 4.3-0.00** | **Su ilə təmasda tez alışan qazlar əmələ gətirən maddələr:** |
| | H 4.3-1.00 | qələvi metallar, qələvi torpaq metallar |
| | H 4.3-1.01 | metalların fosfidləri |
| | H 4.3-1.02 | qələvi metalların hidridləri |
| | H 4.3-1.03 | kalsium-karbid |
| | H 4.3-1.04 | digərləri, məsələn alüminium posası |
| **H 5.1** | **H 5.1-0.00** | **Oksidləşdirici maddələr:** |
| | H 5.1-1.00 | oksidləşdirici maddələr (azot turşusunun 70 %-i və ya $N_2O_2$-nin 60 %-i kimi və ya daha gücl effekti olanlar) |
| | H 5.1-1.01 | halogen və onların duzları-əsaslı turşular |
| | H 5.1-1.02 | azot və onun duzları-əsaslı turşular |
| | H 5.1-1.03 | kükürd və onun duzları-əsaslı turşular |
| | H 5.1-1.04 | xrom birləşmələri |
| | H 5.1-1.05 | digər turşular və onların duzları |
| | H 5.1-1.06 | qələvi metalların/qələvi-torpaq metalların qeyri-üzvi peroksidləri |
| | H 5.1-1.07 | digər oksidləşdirici maddələr |
| **H 5.2** | **H 5.2-0.00** | **Üzvi peroksidlər:** |
| | H 5.2-1.00 | üzvi peroksidlər |
| | H 5.2-1.01 | peroüzvi turşular, persollar, peroksidlər və ya hidroperoksidlər |
| **H 6.1** | **H 6.1-0.00** | **Çox zəhərli (toksiki) maddələr:** |
| | H 6.1-1.00 | yüksək toksikli üzvi maddələr |
| | H 6.1-1.01 | halogen tərkibli üzvi maddələr |
| | H 6.1-1.02 | azot tərkibli üzvi maddələr |

| | | |
|---|---|---|
| | H 6.1-1.03 | digər üzvi maddələr |
| **1** | **2** | **3** |
| | **H 6.1-2.00** | **Yüksək toksikli qeyri-üzvi maddələr:** |
| | H 6.1-2.01 | sərbəst sianidlər |
| | H 6.1-2.02 | talliumun, berilliumun və civənin birləşmələri |
| | H 6.1-2.03 | digər yüksək toksikli qeyri-üzvi maddələr |
| | **H 6.1-3.00** | **Üzvi toksik maddələr:** |
| | H 6.1-3.01 | halogen tərkibli üzvi maddələr |
| | H 6.1-3.02 | azot tərkibli üzvi maddələr |
| | H 6.1-3.03 | kükürd tərkibli üzvi maddələr |
| | H 6.1-3.04 | digər üzvi maddələr |
| | **H 6.1-4.00** | **Qeyri-üzvi toksik maddələr:** |
| | H 6.1-4.01 | civə və onun birləşmələri |
| | H 6.1-4.02 | arsen və onun birləşmələri |
| | H 6.1-4.03 | ağır metalların birləşmələri |
| | H 6.1-4.04 | digər qeyri-üzvi toksik maddələr |
| | **H 6.1-5.00** | **Tərkibində H 6.1-1, H 6.1-2, H 6.1-3 və H 6.1-4 siniflərinin materialı olan tullantılar:** |
| | H 6.1-5.01 | müddəti keçmiş dərmanlar və digər əczaçılıq maddələri |
| | H 6.1-5.02 | yerqazan maşınla qazma vaxtı çıxarılan torpaq və ya qrunt |
| | H 6.1-5.03 | tikinti və ya söküntü vaxtı əmələ gələn tullantılar |
| | H 6.1-5.04 | oduncaq (ağac) və oduncaq məhsulları |
| | H 6.1-5.05 | absorbentlər, qablaşdırma və süzgəc materialları |
| | H 6.1-5.06 | doğranmış və ya xırdalanmış tullantılar |
| **H 6.2** | **H 6.2-0.00** | **Yoluxdurucu maddələr:** |
| | H 6.2-1.00 | yoluxucu maddələr |
| | H 6.2-1.01 | insan və ya heyvan dərisi, qan, sarğı materialları |
| | H 6.2-1.02 | iti kəsici-deşici alətlər (iynələr, cərrah bıçağı və s.) |
| | H 6.2-1.03 | istifadə olunmuş tibb preparatları (məsələn, vaksinlər) və yoluxucu laboratoriya tullantıları |
| | H 6.2-1.04 | yuxarıda göstərilən maddələrin qarışığı |
| **H 8** | **H 8.0-0.00** | **Korroziv maddələr:** |
| | H 8.0-1.00 | üzvi korroziv maddələr |
| | H 8.0-1.01 | halogen tərkibli üzvi maddələr |
| | H 8.0-1.02 | azot tərkibli üzvi maddələr |
| | H 8.0-1.03 | kükürd tərkibli üzvi maddələr |
| | H 8.0-1.04 | digər üzvi maddələr |
| | **H 8.0-2.00** | **Qeyri-üzvi maddələr:** |
| | H 8.0-2.01 | turşular |
| | H 8.0-2.02 | hidroksidlər |
| **1** | **2** | **3** |
| | H 8.0-2.03 | turş qudronlar və yağlar |
| | H 8.0-2.04 | halogenlər və onların birləşmələri |
| | H 8.0-2.05 | fosfor birləşmələri |
| | H 8.0-2.06 | digər qeyri-üzvi korroziv maddələr |
| | **H 8.0-3.00** | **Tərkibində H 8.0-1 və H 8.0-2 siniflərinin materialları olan tullantılar:** |
| | H 8.0-3.01 | yerqazan maşınla qazma vaxtı çıxarılan torpaq və ya qrunt |
| | H 8.0-3.02 | tikinti və ya söküntü vaxtı əmələ gələn tullantılar |
| | H 8.0-3.03 | oduncaq (ağac) və oduncaq məhsulları |
| | H 8.0-3.04 | absorbentlər, qablaşdırma və süzgəc materialları |
| | H 8.0-3.05 | doğranmış və ya xırdalanmış tullantılar |
| **H 10** | **H 10.0-0.00** | **Su, hava və ya turşularla təmasda toksik qazlar ayıran maddələr:** |

| | | |
|---|---|---|
| | H 10.0-1.00 | su, hava və turşularla təmasda toksik qazlar əmələ gətirən maddələr |
| | H 10.0-1.01 | hipoxloridlər |
| | H 10.0-1.02 | qeyri-üzvi sulfidlər və polisulfidlər |
| | H 10.0-1.03 | qeyri-üzvi arsenidlər və fosforidlər |
| | H 10.0-1.04 | digər qeyri-üzvi maddələr |
| | H 10.0-1.05 | üzvi maddələr |
| **H 11** | **H 11.0-0.00** | **Toksik maddələr ( uzunsürən və ya xroniki xəstəliklər əmələ gətirən):** |
| | H 11.0-1.00 | üzvi mənşəli konserogen maddələr |
| | H 11.0-1.01 | halogenləşdirilmiş turş qudronlar və kub qalıqları |
| | H 11.0-1.02 | halogen tərkibli yağlar |
| | H 11.0-1.03 | digər halogenləşdirilmiş üzvi maddələr |
| | H 11.0-1.04 | kömür və oduncaq qətranları |
| | H 11.0-1.05 | neft qətranları və kub qalıqları |
| | H 11.0-1.06 | neft tərkibli qazma palçıqları (məhlulları) |
| | H 11.0-1.07 | işlənmiş yağlar və neft şlamları |
| | H 11.0-1.08 | kreozit və polisiklik aromatik karbohidrogenlər |
| | H 11.0-1.09 | su-yağ qarışıqları |
| | H 11.0-1.10 | digər üzvi maddələr |
| | **H 11.0-2.00** | **Qeyri-üzvi mənşəli konserogen maddələr:** |
| | H 11.0-2.01 | ağır metalların qeyri-üzvi birləşmələri |
| **1** | **2** | **3** |
| | H 11.0-2.02 | asbest |
| | H 11.0-2.03 | bərkidilmiş (möhkəmləndirilmiş) asbest |
| | H 11.0-2.04 | digər qeyri-üzvi mənşəli konserogen maddələr |
| | **H 11.0-3.00** | **Teratogenlər:** |
| | H 11.0-3.01 | halogen tərkibli üzvi maddələr |
| | H 11.0-3.02 | azot tərkibli üzvi maddələr |
| | H 11.0-3.03 | kükürd tərkibli üzvi maddələr |
| | H 11.0-3.04 | ağır metal tərkibli üzvi maddələr |
| | H 11.0-3.05 | digər üzvi maddələr |
| | H 11.0-3.06 | ağır metal tərkibli qeyri-üzvi maddələr |
| | H 11.0-3.07 | digər qeyri-üzvi maddələr |
| | **H 11.0-4.00** | **Mutagenlər:** |
| | H 11.0-4.01 | halogen tərkibli üzvi maddələr |
| | H 11.0-4.02 | azot tərkibli üzvi maddələr |
| | H 11.0-4.03 | kükürd tərkibli üzvi maddələr |
| | H 11.0-4.04 | ağır metal tərkibli üzvi maddələr |
| | H 11.0-4.05 | digər üzvi maddələr |
| | H 11.0-4.06 | ağır metal tərkibli qeyri-üzvi maddələr |
| | H 11.0-4.07 | digər qeyri-üzvi maddələr |
| | **H 11.0-5.00** | **Tərkibində H 11.0-1, H 11.0-2, H 11.0-3 və H 11.0-4 siniflərin materialları olan tullantılar:** |
| | H 11.0-5.01 | yerqazan maşınla qazma vaxtı çıxarılan torpaq və ya qrunt |
| | H 11.0-5.02 | tikinti və ya söküntü vaxtı əmələ gələn tullantılar |
| | H 11.0-5.03 | oduncaq (ağac) və oduncaq məhsulları |
| | H 11.0-5.04 | absorbentlər, qablaşdırma və süzgəc materialları |

| | | |
|---|---|---|
| | H 11.0-5.05 | doğranmış və ya xırdalanmış tullantılar |
| **H 12** | **H 12.0-0.00** | **Ekotoksik maddələr** |
| | **H 12.0-1.00** | **Üzvi maddələr:** |
| | H 12.0-1.01 | polixlorlaşdırılmış benefillər və terfinillər (PXB və PXT) |
| | H 12.0-1.02 | xlorftorkarbohidrogenlər |
| | H 12.0-1.03 | halogen tərkibli üzvi maddələr |
| | H 12.0-1.04 | azot tərkibli üzvi maddələr |

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| | H 12.0-1.05 | kükürd tərkibli üzvi maddələr | sement sobalarında yandırma |
| | H 12.0-1.06 | digər üzvi maddələr | sement sobalarında yandırma |
| | **H 12.0-2.00** | **Qeyri-üzvi maddələr:** | |
| | H 12.0-2.01 | ağır metal tərkibli qeyri-üzvi maddələr | fiziki-kimyəvi emal |
| | H 12.0-2.02 | berillium və onun birləşmələri | fiziki-kimyəvi emal |
| | H 12.0-2.03 | digər qeyri-üzvi maddələr | fiziki-kimyəvi emal |
| | **H 12.0-3.00** | **Tərkibində H 12.0-1 və H 12.0-2 siniflərin materialları olan tullantılar:** | |
| | H 12.0-3.01 | yerqazan maşınla qazma vaxtı çıxarılan torpaq və ya qrunt | poliqon |
| | H 12.0-3.02 | tikinti və ya söküntü vaxtı əmələ gələn tullantılar | poliqon |
| | H 12.0-3.03 | oduncaq (ağac) və oduncaq məhsulları | poliqon |
| | H 12.0-3.04 | absorbentlər, qablaşdırma və süzgəc materialları | poliqon |
| **H 13** | **H 13.0-0.00** | **Kənarlaşdırıldıqdan sonra yuxarıda göstərilən xüsusiyyətlərin birinə malik olan, başqa materiallar əmələ gətirə bilmə qabiliyyəti olan maddələr :** | |
| | H 13.0-1.00 | yuxarıda göstərilən istənilən xassəyə malik olan, basdırıldıqdan sonra başqa materiallar əmələ gətirə bilən (məsələn: yuyulma, yuyulub çıxardılma) tullantılar | təhlükəli tullantıların yandırılması və ya sement sobalarında yandırılması |
| | H 13.0-1.01 | yuxarıda göstərilən istənilən xassəyə malik olan, basdırıldıqdan sonra başqa materiallar əmələ gətirə bilən (məsələn: yuyulma, yuyulub çıxardılma) üzvi tullantılar | təhlükəli tullantıların yandırılması və ya sement sobalarında yandırma |
| | **H 13.0-2.00** | **Yuxarıda göstərilən istənilən xassəyə malik olan, basdırıldıqdan sonra başqa materiallar əmələ gətirə bilən (məsələn: yuyulma, yuyulub çıxardılma) qeyri-üzvi maddələr** | |
| | H 13.0-2.01 | yuxarıda göstərilən istənilən xassəyə malik olan, basdırıldıqdan sonra başqa materiallar əmələ gətirə bilən (məsələn: yuyulma, yuyulub çıxardılma) qeyri-üzvi maddələr | fiziki-kimyəvi emal |

Təhlükəli tullantıların təsnifat sistemi Dünya Bankının dəstəyi ilə JacobsGİBB Ltd (İngiltərə), İntegrated Skills Ltd (İngiltərə və Azərbaycan) və AzSpetsProminvest (Azərbaycan) kompaniyaları tərəfindən hazırlanmış «Təhlükəli tullantıların idarə olunması sistemi» layihəsinin (2002-ci il) 1-ci cildinə əsasən tərtib olunmuşdur.